STATE CIVIL AVIATION AGENCY

SCAA-SB-05
Safety BULLETIN Conflict Zones

Mövzu: Münaqişə zonaları — İran, İordaniya, Livan, İraq, Suriya, Bəhreyn, Qatar, Birləşmiş Ərəb Əmirlikləri, İsrail, Pakistan,Əfqanıstan hava məkanları

Status:
Aktiv

Dərc olunan tarix:
01 Mar 2026

Qüvvədə olma tarixi:
Bu informasiya bülleteni ləğv edilənədək və ya ona hər hansı dəyişikliklər edilənədək qüvvədə hesab olunur.

Aidiyyət: Azərbaycan Respublikasında qeydə alınmış hava gəmisi əməliyyatçıları və Aeronaviqasiya xidməti

İstinad sənədləri: Məruz qalmış ölkələrin aviasiya üzrə səlahiyyətli qurumları tərəfindən dərc olunmuş aeronavtika nəşrləri, EASA, FAA nəşrləri, eləcə də DMAA tərəfindən həyata keçirilmiş nəzarət və analizlər əsasında.

Əhatə dairəsi:

Bütün hündürlüklər/ Bəhreyn (Bahrain FIR – OBBB), Iran (Tehran FIR – OIIX), Iraq (Baghdad FIR – ORBB), Israil (Tel Aviv FIR – LLLL), İordaniya (Amman FIR – OJAC), Küveyt (Kuwait FIR – OKAC), Livan (Beirut FIR – OLBB), Omman (Muscat FIR – OOMM), Qatar (Doha FIR – OTDF), Birləşmiş Ərəb Əmirlikləri (Emirates FIR – OMAE).

Təsvir: Son aylar Yaxın Şərq və Asiya ərazilərində davam edən çoxsaylı münaqişə və maraq toqquşmalarının təhlili və məlumatların daxil olması göstərir ki, bu regionlarda qarşıdurmalar pik həddinə çatıb və artıq münaqişələr açıq dövlətlərarası toqquşmalar ilə nəticələnir. Həmin toqquşmalarda dövlətlər ən ağır, müasir və eksperimental silahlardan istifadə etməkdən çəkinmirlər. Onu da qeyd etmək lazımdır ki, adları çəkilən dövlətlərin böyük əksəriyyəti öz hava məkanlarını idarəetmə bacarıqlarını kifayət qədər müsbət tərəfdən göstəriblər və həmin dövlətlərdən daxil olan rəsmi məlumatlar-etibarlı məlumatlar sayılır.

Bütün bunları nəzərə alaraq, adı çəkilən dövlətlərin dərc etdikləri NOTAM və digər yerli mənbələrdən alınan məlumatları diqqətlə izləmək və dövlətlər tərəfindən qadağa və məhdudiyyətlərə itaət etməklə yanaşı həmin ərazilərə uçuşlar zamanı konflikt zonalarına aid olan İCAO Doc 10084 nömrəli sənədlərin tələblərinə uyğun olaraq, risklərin idarəedilməsi tədbirlərinin həyata keçirilməsi-mütləqdir.

—

Əlavə olaraq, son 5 il ərzində müharibə strateqiyalarının və silah növlərinin təkmilləşdirilməsini nəzərə almaq-risk qiymətləndirilməsini daha düzgün və təhlükəsiz aparılmasının zəmanətidir. Qiymətləndirmə zamanı, münaqişə tərəflərinin texnoloji bacarıqlarını, Radioelektron mübarizə sistemləri, hava hüçümu sistemlərinin tətbiq olunma əraziləri, kəşfiyyat və hücum dronlarının fəaliyyətləri nəzərə alınmalıdır.

Tövsiyyələr:

1. Bütün operatorlar təsirə məruz qalmış ərazilər barəsində məhdudiyyət, qadağa və təhlükə zonası bəyan olunmuş hava məkanı hissələrini daimi əsasla yaxından monitorinqini həyata keçirsin.
2. Operatorlar konflikt zonaları və onlara yaxın ərazılərdə marşrutlar üzrə həyata keçirilən bütün uçuşlara münasibətdə ICAO 10084 sənədinə uyğun əməliyyat risk qiymətləndirilməsi həyata keçirilsin və zərurət olduqda operativ məlumat əsasında spesifik uçuşların dayandırılması və digər istiqamətə yönləndirmə barəsində qərar qəbul edilsin.
3. Təsirə məruz qalmış ərazilər barəsində məhdudiyyət, qadağa və təhlükə zonası bəyan olunmuş hava məkanı hissələrində bütün məhdudiyyətlər götürüldükdən sonra da istinad olunan sənədə uyğun risk qiymətləndirilməsinin həyata keçirilməsi davam etdirilsin və əməliyyatların bərpa edilməsi risklərin qiymətləndirilməsi əsasında keçirilməsini təmin etsin.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və
Nəqliyyat Nazirliyi tabeliyində
"Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsi